# "AzInTelecom" MMC-nin xidmət və informasiya təhlükəsizliyini idarəetmə sistemi üzrə

## Siyasəti

"AzInTelecom" MMC Azərbaycan və xarici ölkələr arasında mübadilə olunan beynəlxalq səs trafiki, Azərbaycana idxal olunan telekommunikasiya vasitələrinin sertifikatlaşdırılması və Data Mərkəzi nəzdində "İnfrastruktur xidmət kimi (IaaS)" xidmətlərinin təşkili zamanı xidmət idarəetmə və informasiya təhlükəsizliyinin təmin olunmasına dair aşağıdakıları öz öhdəliyinə götürür:

- ✓ Müştərilərimizə sərfəli təkliflər irəli sürmək məqsədilə onların tələblərinə tam cavab verən, qənaətbəxş səviyyədə, ən effektiv şəkildə və razılaşdırılmış işləmə səviyyəsi təmin olunmaqla yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi.
- ✓ Fəaliyyətimizin milli və beynəlxalq standartlara, normativ hüquqi aktların və Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğunluğunun təmin olunması, habelə prosedurların müntəzəm şəkildə təkmilləşdirilməsi üçün effektivlik meyarlarının müəyyən edilməsi və uzlaşdırılması.
- ✓ Razılaşdırılmış işləmə səviyyəsini təmin etmək məqsədilə keyfiyyət sahəsində hərtərəfli nəzərdən keçirilən məqsədlərin müntəzəm şəkildə müəyyən olunması.
- ✓ İT xidmətlərinin idarə edilməsində mükəmməlliyin təmin olunması.
- ✓ İdarənin (şirkətin) siyasətinin uyğunluq baxımından müntəzəm olaraq nəzərdən keçirilməsi və müvafiq olduğu hallarda yenilənməsi.
- ✓ İnformasiya resurslarının, şirkətin resursları və xidmətlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının təmin edilməsi.
- ✓ Giriş və emal prosesi zamanı təsnifat səviyyəsinə uyğun olaraq məlumatların qorunması
- ✓ Müştərilərin, tərəfdaşların, rəqiblərin əqli mülkiyyət hüququna uyğun olaraq, məlumatların icazəsiz istifadə olunmaması

**"AzInTelecom" MMC-nin direktoru vəzifəsini icra edən** **Leyla Məmmədova**